***Yəhya bəy Dilqəm***
***Dağlar***

Ziynəti nərgizdən, tər bənöfşədən,
Al-yaşıl geyinib şad olan dağlar.
Ruhu təzələyit gülab suları,
Dəhanları şirin dad olan dağlar.

Qərənfil, şəqayiq, lalə tazə tər,
Baharın gülləri onu al bəzər,
Qara gəlsin süsən, sünbül sərbəsər,
Bülbülü güllərdən yad olan dağlar.

Qızılcadı soyuqbulaq yaylağı,
Barələri şahin-şahbaz oylağı,
Ab-həyati kövsər, gözəllər sağı,
Canlara mötədil bad olan dağlar.

Bir yanda yaylardı Keçili, Dəllər,
Bir yanda yurd salır o ağır ellər,
Açılıb nəstərən, qırmızı güllər,
Taləzar türfəli ad olan dağlar.

***Dilqəm Y. Dağlar // Azərbaycan aşıqları. – Bakı: Çaşıoğlu, 2004. – S. 141.***